Mədəni-maarif.-2005.-№1.-S.51

Ağaş MİRZƏZADƏ

*

# Qayğılarınla

*Xonçagül xanıma*

*Arzu da, istək də dünənki deyil,*
*Bilirsən ömür-gün nə qədər baha.*
*Səni dəyişdirib illər elə bil,*
*Yox, mən də əvvəlki deyiləm daha.*

*Dünya bizim üçün al səhər açar,*
*Səpələr sonra da leysan yağışı.*
*Beləcə bir ömrün enişi başlar,*
*Hazır ol, sonra da başlar yoxuşu.*

*İçimdə bir ümid göyərər qış, yaz,*
*Ötəri bir həvəs quru səs deyil.*
*Mənim arzularım sərhəd tanımaz,*
*Mənim arzularım görünməz deyil.*

*Yoxsa bu ömürdən gileyinmi var?*
*Varlıyam, hallıyam duyğularımla.*
*O da cana gələr, pərvəriş tapar*
*Sənin təmənnasız qayğılarınla...*

Lerik